MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

QEYRİ-MADDİ MƏDƏNİ İRS

TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

ÇAY MƏDƏNİYYƏTİ: TARİXİ, SOSİAL ROLU VƏ MƏRASİM ƏNƏNƏLƏRİ
Ceyhun İsmayılov 201

İFTARIN SOSİAL VƏ DİNİ ƏHƏMİYYƏTİ
Əhməd Niyazov 211

SEYİD YƏHYA BAKUVİNİN "ŞƏFAÜL-ƏSRAR" ƏSƏRİNDƏ SUFİ ORUCU VƏ
MİR HƏMZƏ SEYİD NİGARİNİN "ÇAYNAMƏ" MƏSNƏVİSİNDƏ ÇAY MƏDƏNİYYƏTİ
ƏSASLI SUFİ ƏDƏBİ
Fariz Xəlilli 217

BAYRAM FENOMENİ: SOSİAL ZAMAN, QONAQPƏRVƏRLİK, PAYLAŞMA VƏ
BARIŞIN RİTUAL MƏDƏNİYYƏTİ
Pərvin Ahənçi 222

ƏNƏNƏDƏN İRSƏ: NOVRUZ MƏRASİMLƏRİ KOLLEKTİV YADDAŞ VƏ
İDENTİKLİK KONTEKSTİNDƏ
Pərvin Ahənçi 243

NOVRUZ OYUNLARI VƏ XALQ ƏYLƏNCƏLƏRİ
Kübra Əliyeva 258

NAR FESTİVALININ KEÇİRİLMƏSİ TARİXİ VƏ GÖYÇAY RAYONUNUN İQTİSADİ,
SOSİAL-MƏDƏNİ HƏYATINDAKI ROLU
Adil Məmmədov 268

NARIN AZƏRBAYCAN MƏDƏNİYYƏTİNDƏ YERİ VƏ SİMVOLİKASI
Ümidə Məcnunlu 273

"SƏMƏNİ" ADLI QƏDİM VƏ MÜQƏDDƏS MAYE-İÇKİNİN HAZIRLANMA ƏNƏNƏSİNİN
BƏRPASINA DAİR
Kübra Əliyeva 276

SƏDƏF SƏNƏTİ: TARİXİ, MAHİYYƏTİ VƏ TƏTBİQİ
Balabəy Balabəyov 283

AZƏRBAYCAN MUĞAMI HAQQINDA BƏZİ QEYDLƏR
Mehman Mikayılov 286

FOTOLAR 290

SEYİD YƏHYA BAKUVİNİN "ŞƏFAÜL-ƏSRAR" ƏSƏRİNDƏ SUFİ ORUCU VƏ MİR HƏMZƏ SEYİD NİGARİNİN "ÇAYNAMƏ" MƏSNƏVİSİNDƏ ÇAY MƏDƏNİYYƏTİ ƏSASLI SUFİ ƏDƏBİ

Fariz Xəlilli
Tarix üzrə fəlsəfə doktoru
AMEA Arxeologiya və Antropologiya İnstitutu
https://doi.org/10.30546/19023.2026.1001.351

Giriş. Seyid Yəhya Bakuvi və Mir Həmzə Seyid Nigari ayrı-ayrı dövrlərdə yaşamalarına baxmayaraq, Azərbaycan sufizminin mühüm və təsirli şəxsiyyətlərindəndir. Seyid Yəhya XV əsrdə Şirvanşahlar dövlətinin paytaxtı olan Şamaxı şəhərində doğulmuş, burada təsəvvüfi təhsil almış, daha sonra isə Bakı şəhərində öz məktəbini formalaşdıraraq xəlvətiyyə təriqətinin ikinci piri və qurucusu kimi tanınmışdır. Onun yetişdirdiyi müridlər təriqəti Asiya, Avropa və Afrikaya qədər geniş coğrafiyada yayaraq bu məktəbin Azərbaycanla bağlılığını qoruyub saxlamışlar. Seyid Yəhya türk, fars və ərəb dillərində iyirmidən çox əsər qələmə almış, xüsusilə "Səfaül-Əsrar" əsəri ilə xəlvətiliyin əsas prinsiplərini sistemli şəkildə ortaya qoymuşdur.

Mir Həmzə Seyid Nigari isə XIX əsrdə Qarabağın Laçın bölgəsinin Cicimli kəndində anadan olmuş, təsəvvüfi təhsilini Ağdam yaxınlığında yerləşən Qarapirimli xanəgahında, Nigar nənənin himayəsi altında almışdır. O, xəlvətiliyin Azərbaycandakı mühüm mərkəzlərindən biri olan bu xanəgahda əldə etdiyi səsli zikr təlimlərini, Kürdəmirli İsmayıl Şirvanidən öyrəndiyi nəqşibəndiliyin səssiz zikr üsulları ilə birləşdirərək nigarilik məktəbinin əsasını qoymuşdur. Həmzə Nigari türk və fars dillərində yazdığı divanı ilə yanaşı, müxtəlif məsnəvilər də qələmə almışdır ki, bunlardan biri "Çaynamə" məsnəvisidir.

Bu məqalədə Seyid Yəhya Bakuvinin "Şəfaül-Əsrar" əsərində sufi orucu anlayışı və Mir Həmzə Seyid Nigarinin "Çaynamə" məsnəvisində çay mədəniyyəti əsasında formalaşan sufi ədəbiyyatı araşdırılacaqdır.

Seyid Yəhya Bakuvinin "Şəfaül-Əsrar" əsərində sufi orucu. Seyid Yəhya Bakuvi tərəfindən türk dilində qələmə alınmış "Şəfaül-əsrar" əsəri onun təsəvvüfi irsində mühüm yer tutur və məzmun etibarilə digər əsərlərinin, xüsusilə "Əsrarü't-talibin" adlı əsərinin şərhi xarakterini daşıyır. Əsərdə müridin mürşidlik yolunda keçməli olduğu yetmiş mənəvi məqam sistemli şəkildə izah edilir və bu məqamlara çatmaq üçün yerinə yetirilməli vəzifələr ətraflı şəkildə açıqlanır. Müəllif təsəvvüf yolunda elmin əhəmiyyətini xüsusi vurğulayaraq həqiqi şeyxlə saxta şeyxlərin xüsusiyyətlərini müqayisəli şəkildə təqdim edir və bu yolda doğru mürşidə tabe olmağın zəruriliyini əsaslandırır. Bununla yanaşı, əsərdə ibadətlərin batini mənaları, zikrin növləri və onların hikmətləri geniş şəkildə şərh olunur; müəllif irəli sürdüyü fikirləri Qurani-Kərim ayələri, hədislər və sufi mütəfəkkirlərinin kəlamları ilə əsaslandıraraq əsərə həm dini, həm də elmi dərinlik qazandırır.

Seyid Yəhya Bakuvi əsərin "Şəriət elmlərinin əsasları" bölməsinin beşinci məqamında oruc barədə düşüncələrini təqdim edir və özünün də mənsub olduğu mərifət əhlinin mövqeyindən çıxış edərək orucu üç əsas növə ayırır: avamın orucu, xasların orucu və axasın (xasların xası) orucu. Onun izahına görə, avamın orucu zahiri səviyyədə olub, yemək, içmək və cinsi əlaqədən uzaq durmaqla məhdudlaşır. Xasların orucu isə daha yüksək mənəvi mərhələni ifadə edir, bu mərhələdə insan yalnız fiziki deyil, həm də mənəvi baxımdan nəfsini qoruyur, üzvlərini və hisslərini günahdan saxlayır, başqalarından gördüyü zülmü bağışlayır və dilini insanlara,

xüsusilə qəlb əhlinə əziyyət verməkdən çəkindirir. Axasın orucu isə təsəvvüfün ən ali mərhələsini təmsil edir və burada salik Allahdan başqa hər şeydən, yəni masivallahdan tamamilə üz çevirir.

O, həqiqət əhlinə istinadən qeyd edir ki, oruc günah xəstəliklərinin dərmanı olub, qəlblərin dirilməsinə səbəb olur. Bildirilir ki, oruc insanın daxili aləmini saflaşdıraraq könüllərin nurlanmasına və axirət baxımından qəbirlərin genişlənməsinə vəsilədir. Bu mənəvi mahiyyəti daha da gücləndirən hədislərdə orucun xüsusi fəziləti vurğulanır; belə ki, Məhəmməd peyğəmbər (s.ə.s.) buyurmuşdur: "Oruc tutan kəs yatağında yatsa belə, ibadət halındadır."

Seyid Yəhya Bakuvi orucu iki əsas növə ayırır: ruhun orucu və nəfsin orucu. Onun izahına görə, ruhun orucu insanın dünyəvi arzularını və uzun-uzadı əməl planlarını qısaltması, yəni qəlbini fanilikdən uzaqlaşdıraraq ilahi məqsədə yönəltməsi ilə bağlıdır. Nəfsin orucu isə daha çox zahiri və əməli səviyyədə təzahür edir, burada insan haramlardan çəkinməli, eyni zamanda yemək-içmək kimi nəfsi istəkləri nəzarət altında saxlamalıdır. O, bu fikirləri gücləndirmək üçün Zünnun Misridən (r.h.) nümunə gətirərək qəlbin qəsavətini aradan qaldırmağın yollarını sadalayır: haramı tərk etmək, namazda qiyamı uzatmaq, orucu davamlı tutmaq, valideynləri və qohumları tez-tez yad etmək, eləcə də yetimlərə yaxşılıq göstərmək. Bu yanaşma təsəvvüfdə orucun yalnız fiziki ibadətdən ibarət olmadığını, həm də qəlbi saflaşdıran və insanı mənəvi kamilliyə aparan kompleks bir tərbiyə vasitəsi olduğunu göstərir.

Seyid Yəhya Bakuvi orucun mahiyyətini izah edərkən nəzəri mülahizələrlə yanaşı, müsəlmanlar arasında geniş yayılmış rəvayətlərə və hikmətli sözlərə də istinad edir. Bu kontekstdə o, Süleyman peyğəmbərdən (ə) nəql olunan bir fikri misal gətirir. Rəvayətə görə, ondan oruc haqqında soruşulduqda belə cavab vermişdir: "Kim nəfsini haramdan ac saxlayar, onu boş söz danışmaqdan çəkindirər, dünyadan uzaqlaşar, günahlardan çəkinər, qəfləti və yuxunu tərk edər, gündüzdən uzaqlaşar və gecə ilə ünsiyyət qurarsa, nəticədə Dostun sıddiq məclisində oturduğunu görər."

Seyid Yəhya Bakuvi XIV-XV əsrlərdə sufi ədəbiyyatında geniş yayılmış hərflərlə izah (hürufi-təfsiri) ənənəsinə uyğun olaraq oruc anlayışını simvolik şəkildə şərh etmişdir. Mərifət əhlinin mövqeyindən çıxış edən müəllif qeyd edir ki, "savm" (oruc) kəlməsi üç hərfdən ibarət olub, hər bir hərf xüsusi mənəvi məqama işarə edir. Onun izahına görə, "sad" hərfi "siyadətün-nəfsi ənil-maasi", yəni nəfsin günahlardan qorunmasını ifadə edir. Bu, orucun ilkin mərhələsi kimi insanın özünü haramlardan və mənəvi zərərlərdən uzaq tutmasını bildirir. "Vav" hərfi isə "vilayətü-taati əl-cəvarih", yəni insanın üzvləri və hisslərinin itaət və ibadətə yönəlməsi mənasını daşıyır, bu mərhələdə artıq zahiri əməllər ilahi itaətlə uyğunlaşdırılır. "Mim" hərfi isə "müdaveməti tərkiş-şərri və iqamətül-ibadə" ifadəsi ilə açıqlanır və şər əməllərin tam tərk edilməsini, eyni zamanda ibadətin davamlı şəkildə yerinə yetirilməsini ifadə edir.

Mərifət əhlinin mövqeyindən çıxış edən Seyid Yəhya Bakuvi qeyd edir ki, aclıq övliyanın məqamı, ənbiyanın isə mənəvi qidasıdır. Alimlər aclığı zəkanın incilərini bəsləyən bir dəniz və hikmət incilərini yetişdirən bir bulud kimi təsvir etmişlər. Bu yanaşmalar aclığın təsəvvüfdə fiziki məhrumiyyətdən daha çox mənəvi yüksəliş və idrakın dərinləşməsi vasitəsi kimi qəbul edildiyini göstərir. Rəvayətlərdə bu məna daha da gücləndirilərək Məhəmməd peyğəmbərə (s.ə.s.) istinadən belə nəql olunur: "Cənnətin qapısını döyməyə davam edin ki, sizə açılsın." Səhabələr "Necə döyək, ya Rəsulallah?" – deyə soruşduqda isə "Aclıq və susuzluqla" – buyurmuşdur. Bu ifadə təsəvvüfi baxımdan aclıq və riyazətin insanı ilahi yaxınlığa aparan əsas vasitələrdən biri kimi dəyərləndirildiyini və oruc anlayışının dərin mənəvi məzmun daşıdığını aydın şəkildə ortaya qoyur.

Məşhur sufi Şibli (r.h.) aclığın mənəvi təsiri ilə bağlı belə demişdir ki, Allah rizası üçün ac qaldığı elə bir gün olmamışdır ki, qəlbində hikmət və ibrət qapılarından biri açılmasın. Bu fikir aclığın sufi təcrübəsində daxili idrakın və ilahi ilhamın açarı kimi qəbul edildiyini göstərir. O, başqa bir kəlamında isə belə buyurmuşdur: "Ac qal ki (mənən) doyasan, doy ki kəsiləsən, qorxmaq üçün qənaət et, yüksəlmək üçün qorx." Bu ifadələr təsəvvüfdə riyazətin və nəfsə qarşı mübarizənin paradoksal mahiyyətini ortaya qoyur. Belə ki, zahiri məhrumiyyət mənəvi dolğunluğa, nəfsin zəiflədilməsi isə ruhun yüksəlişinə səbəb olur.

Seyid Yəhya Bakuvi sufi orucu ilə bağlı fikirlərini Əbu Qasım Nəsrabadinin sözləri ilə yekunlaşdırır. Bu çərçivədə belə bir sual irəli sürülür: "Biz avamların aclığının mahiyyətini anladıq, bəs aqillərin aclığı nədir?" Verilən cavab isə daha dərin mənəvi məzmun daşıyır: aqillərin aclığı elmə, fəhmə, zəkaya və itaətə yönəlmiş mənəvi aclıqdır.

Mir Həmzə Seyid Nigarinin "Çaynamə" məsnəvisində çay mədəniyyəti əsaslı sufi ədəbi. Mir Həmzə Seyid Nigarinin "Çaynamə" məsnəvisi XIX əsr Azərbaycan ədəbiyyatında həm mövzu, həm də poetik quruluş baxımından orijinal əsərlərdən biridir. Əsər zahirən çay, səmavər, süd, qaymaq, limon, şəkər və çay süfrəsi ətrafında qurulsa da, onun əsas mahiyyəti məişət təsvirindən daha genişdir. Nigari gündəlik həyatın adi görünən predmetlərini təsəvvüfi məna sisteminə daxil edir və çay mədəniyyətini sufi düşüncənin poetik ifadə vasitəsinə çevirir.

"Çaynamə-i Seyyid Nigari" 521 beytdən və on səkkiz bölümdən ibarət təsəvvüfi-alleqorik məsnəvidir. Əsər klassik məsnəvi ənənəsinə uyğun olaraq tövhid, nət, münacat və əsərin yazılma səbəbini bildirən bölümlərlə başlayır. Lakin əsərin orijinallığı ondadır ki, Nigari klassik məsnəvi strukturunu çay mədəniyyəti ilə əlaqələndirir. Beləliklə, əsərdə çay yalnız içki deyil, sufi məclisinin, zikrin, ilahi eşqin və mənəvi ünsiyyətin rəmzinə çevrilir. Əsərin başlanğıcında şair Allahın kainata verdiyi nizamı tərənnüm edir.

Əsər ilahi nizam ideyası ilə başlayır və sonrakı bölümlərdə çay dəstgahı da həmin nizamın kiçik modeli kimi təqdim olunur. Səmavər, od, su, buxar, çay, stəkan, qaşıq və digər əşyalar bir-biri ilə əlaqəli mənəvi sistem yaradır. Bu sistemdə hər predmet zahiri funksiyasını saxlayır, eyni zamanda batini məna qazanır.

Əsərdə səmavər əsas simvolik mərkəzlərdən biridir. Nigari səmaveri yalnız çay hazırlayan məişət əşyası kimi təsvir etmir. Onun içində od və suyun bir yerdə olması şair üçün xüsusi məna daşıyır. Od eşqin, yanğının və mənəvi təmizlənmənin, su isə həyatın, diriliyin və ilahi feyzin rəmzidir. Səmavərdə bu iki zidd ünsürün birləşməsi sufi düşüncədə vəhdət ideyasını xatırladır. Şairin səmaveri aşiq qəlbinə bənzətməsi də təsadüfi deyil. Aşiqin zahiri sakit, batini isə eşq atəşi ilə yanmışdır. Səmavərin zahiri qızılı və parlaq, daxili isə odla dolu təsvir edilir. Bu, sufi aşiqinin zahir-batin ikiliyini ifadə edir.

"Çaynamə"də çayın özü də çoxqatlı simvol kimi təqdim olunur. Nigari çayı müşk qoxulu, gül üzlü, könül açan bir varlıq kimi vəsf edir:

Ol nafe-i ahu çay-ı hoş-bu
İhvan-ı tarik zikri ya Hu

Bu beytdə çay "Ya Hu" zikri ilə əlaqələndirilir. Deməli, çay sufi məclisində sadəcə içki deyil, zikr mühitinin bir parçasıdır. Çayın ətri, rəngi, istiliyi və təsiri mənəvi coşqu yaradan vasitə kimi anlaşılır. Şair çayın qırmızı rəngini yaqut, mərcan və tovuz quşunun qanı ilə müqayisə edir. Bu bənzətmələr çayın estetik görünüşünü artırmaqla yanaşı, onun eşq və hərarət rəmzi olduğunu da göstərir.

Nigari çayın şəfalı xüsusiyyətlərini də vurğulayır. Onun "min dərdə dəva" olması yalnız fiziki sağlamlıq mənasında olmayıb, həm də mənəvi təmizlənmə baxımından anlaşılmalıdır. Şair çayın tiryək olmadığını, əksinə zəhəri bədəndən təmizlədiyini bildirir. Burada çay nəfsani sərxoşluq yerinə, ruhi ayıqlığın və mənəvi saflaşmanın vasitəsidir. Klassik sufi poeziyasında şərab çox vaxt ilahi eşq sərxoşluğunun rəmzi kimi işlənir. Nigari isə bu ənənəyə yeni məzmun gətirərək çayı şərabın yerinə qoyur. Beləliklə, "Çaynamə"də çay sufi poeziyasının ənənəvi "mey" obrazının alternativi kimi çıxış edir.

Əsərdə süd, qaymaq, limon və şəkər də yalnız süfrə elementləri kimi verilməyib. Onların hər biri sufi poetikasında ayrıca məna daşıyır. Süd saflıq, paklıq və fitri təmizlik rəmzidir:

Bi-cam içilür o şir bi-leb
Bi-vasat gönül olur leb-a-leb

Bu beytdə südün "camsız" və "dodaqsız" içilməsi onun maddi çərçivədən çıxarıldığını göstərir. Süd artıq fiziki qida deyil, könlü dolduran ilahi feyzdir. Qaymaq zövqün, ləzzətin və mənəvi nəşənin, şəkər sözün şirinliyinin, limon isə dərdli aşiqin sarı çöhrəsinin rəmzinə çevrilir. Nigari bu predmetləri bir çay süfrəsində birləşdirməklə sufi məclisinin alleqorik modelini yaradır.
Əsərdə "söz humayı" obrazı mühüm funksiyaya malikdir. Şair bu humayı müxtəlif ölkələrə və müqəddəs məkanlara göndərir. Fransa, İngiltərə, Misir, İsfahan, Xorasan, Məşhəd, Buxara, Səmərqənd kimi məkanlar sadəcə coğrafi adlar kimi xatırlanmır. Onlar mənəvi səfərin mərhələləri kimi təqdim olunur. Söz humayı şəkər, limon, süd, qaymaq axtarır, lakin bu axtarış eyni zamanda irfan, feyz və mənəvi kamillik axtarışıdır. Bəyazid Bistami, İmam Rza, Bəhaəddin Nəqşibənd, Übeydullah Əhrar kimi sufi şəxsiyyətlərin xatırlanması əsərin təsəvvüfi məzmununu daha da dərinləşdirir.

"Çaynamə"nin ən əhəmiyyətli qatlarından biri Qarabağla bağlı bölümlərdir. Nigari Qarabağı çay mədəniyyətinin və sufi məclisinin mənəvi vətəni kimi təqdim edir. Şair Qarabağın təbiətini, bağlarını, sularını, atlarını, gözəllərini və insanlarını böyük məhəbbətlə təsvir edir. Qarabağ onun üçün yalnız doğma torpaq deyil, həm də eşqin, feyzin və mənəvi bağlılığın mərkəzidir. Bu baxımdan əsərin Qarabağ bölümü şəhraşub, şəhrəngiz və biladiyyə ənənəsinin davamı kimi qiymətləndirilə bilər. Lakin Nigari bu ənənəyə sufi məzmun əlavə edir: Qarabağ həm gözəllik məkanı, həm də mənəvi yaddaş yurdu kimi təqdim olunur.

Şairin Qarabağ haqqında dediklərində vətən sevgisi ilə sufi eşq birləşir. O, Qarabağın rus əsarətindən qurtulmasını və yenidən azad şəkildə görülməsini arzulayır. Bu məqam "Çaynamə"ni təsəvvüfi-alleqorik əsər olmaqla yanaşı, həm də milli-mənəvi yaddaş nümunəsi kimi dəyərləndirməyə imkan verir. Nigari üçün vətən maddi məkan deyil, o, ilahi feyzin, eşqin və mənəvi kimliyin daşıyıcısıdır.

Əsərin sonuncu bölümü "Der Beyan-ı esas-ha-yı semaver" adlanır və burada çay dəstgahının bütün ünsürləri poetik sistemə daxil edilir. Büllur stəkanlar saf könüllərə, çay ilahi eşqə, limon dərdli aşiqlərin sarı çöhrəsinə, qaşıqların səsi isə məclisin ahənginə bənzədilir. Nigari çay süzgəcindən axan çayı "Rəşahətül-Aynil-Həyat", çayın ətrini isə "Nəfahatül-Üns" kimi sufi mənbələrlə əlaqələndirir. Bu təlmihlər göstərir ki, şair çay dəstgahını sufi irfanının bədii modeli kimi qurur.

"Çaynamə"nin orijinallığı məhz buradadır. Nigari gündəlik həyat predmetlərini yüksək poetik və təsəvvüfi mənalarla yükləyir. Səmavər kainatın, od eşqin, su həyatın, çay zikrin, süd paklığın, şəkər sözün, limon dərdin, qaymaq isə mənəvi zövqün rəmzinə çevrilir. Bu baxımdan əsər çay mədəniyyəti əsasında qurulmuş sufi ədəbi model kimi dəyərləndirilə bilər.

Mir Həmzə Seyid Nigarinin "Çaynamə" məsnəvisi Azərbaycan ədəbiyyatında çay mədəniyyətinin poetikləşdirilməsi baxımından nadir nümunədir. Əsər çay süfrəsini sufi məclisinə, səmavəri aşiq qəlbinə, çayı ilahi eşqin və zikrin rəmzinə çevirir. Burada məişət ilə irfan, gündəlik həyat ilə metafizik düşüncə, vətən sevgisi ilə ilahi eşq bir-birini tamamlayır. Nigari "Çaynamə" vasitəsilə həm klassik məsnəvi ənənəsini davam etdirir, həm də Azərbaycan ədəbiyyatına çay mədəniyyəti əsasında formalaşmış orijinal sufi-poetik düşüncə modeli gətirir. **Nəticə.** Seyid Yəhya Bakuvinin "Şəfaül-Əsrar" əsəri və Mir Həmzə Seyid Nigarinin "Çaynamə" məsnəvisi Azərbaycan sufi düşüncəsinin nəzəri və poetik istiqamətlərini əks etdirən mühüm mənbələrdir. Seyid Yəhya Bakuvi orucu nəfsin saflaşdırılması və mənəvi kamilləşmə vasitəsi kimi şərh etdiyi halda, Mir Həmzə Seyid Nigari gündəlik çay mədəniyyətini təsəvvüfi-irfani məna ilə zənginləşdirərək onu poetik model səviyyəsinə yüksəltmişdir. Hər iki əsər göstərir ki, Azərbaycan təsəvvüfü yalnız dini-fəlsəfi sistem deyil, həm də məişəti, davranışı və estetik düşüncəni formalaşdıran geniş mənəvi-mədəni dünyagörüşüdür.

Ədəbiyyat:

1. Bayram P. Seyyid Nigarinin "Çaynamə" məsnəvisi // Bakı Dövlət Universiteti Dil və Ədəbiyyat Dərgisi: beynəlxalq elmi-nəzəri jurnal. – 2008. – № 2 (62). – S. 133–137.
2. Bayram P. Eşqdəndir, ey Nigari, hər nə var / red. N. Araslı. – Bakı: Elm və təhsil, 2025. – 448 s.
3. Məmmədli N. Seyid Nigarinin təsəvvüfi görüşləri // III Beynəlxalq Həmzə Nigari Türk Dünyası Mədəni İrsi Simpoziumu materialları (Şamaxı, Azərbaycan, 17–18.05.2017) / haz. F. Xəlilli, M. Hakverdioğlu. – Şamaxı, 2017. – S. 13–22.
4. Rıhtım M. Seyid Yəhya Bakuvi və xəlvətilik / elmi red. A. Musayeva, S. Şıxıyeva; red. F. Xəlilli, V. Səmədova. – Bakı: Qismət, 2005. – 264 s.
5. Seyid Yəhya əş-Şirvani əl-Bakuvi. Şəfa əl-əsrar (sufiliyin sirləri) / nəşrə hazırlayan M. Rıhtım; Azərbaycan dilinə uyğunlaşdıranlar: N. Abuzərov, A. Sultan, Ə. Fərhadov, D. Əhmədov; elmi redaktorlar: Z. Quluzadə, A. Musayeva; redaktorlar: M. Təkləli, N. Məmmədova. – Bakı: Elm RNPM, 2010. – 408 s. – ISBN 9789952453447.
6. Tuna C., Tuna H. B. Mevlana Mir Hamza Nigari'nin Çaynamesi'nde sohbet ve günümüze yansımaları // V Beynəlxalq Həmzə Nigari Simpoziumu materialları (Ağdam/Quzanlı, 17–19 may 2022) / haz. Ş. Xəlilli, F. Xəlilli, M. Hakverdioğlu. – 2 cilddə, II cild. – Bakı: im.print, 2022. – S. 416–430.

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

Kitab ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300